## Xidmətlərin keyfiyyəti vergi ödəyicilərini qane edir

... Səhər saatları olmasına baxmayaraq vergi ödəyicilərinin, ən çox da xidmət şöbəsinə üz tutanların aramsız gəlişi davam edir. Vətəndaşlar müxtəlif məsələlərlə bağlı müraciət edir, onları qane edən cavabı aldıqdan sonra məmnun halda idarə binasını tərk edirlər. Gəncə şəhərinin yaraşıqlı yerlərindən birində yerləşən 12 saylı Ərazi Vergilər İdarəsində (ƏVİ) hər gün bu mühit hökm sürür.

İdarə binasının özünəməxsus arxitekturası var. Milli ornamentlərlə zəngin, eyni zamanda müasir şəhərsalma üslubunda bir kompozisiya təşkil edən bina yeniləşən Gəncəyə gözəllik verir. Yaşıl ot örtüyü və həyətdə nizamla sıralanan ağaclar idarəyə bir yaraşıq gətirməklə yanaşı, insanların, xüsusilə də hər gün buraya baş çəkən 100-dən çox ödəyicinin əhval-ruhiyyəsinə xoş təsir göstərir. İdarənin texniki təchizat və informasiya-kommunikasiya imkanları çox genişdir. Burada mini-futbol, voleybol, trenajor zalları işçilərin işə sağlam ruhla başlamasına töhfə verir. Həftənin ikinci günü saat 9.00-dan 10.30-dək bütün işçilər idman saatına qatılır, işdən sonra isə vaxtlarını asudə keçirmək istəyənlər idmanın müxtəlif növləri ilə məşğul olurlar. Həftənin şənbə günü daha maraqlı olur, vergi əməkdaşları idman rəqabəti şəraitində əsil mübarizə aparırlar.

*Vətəndaşların müraciətləri cavablandırılır*

12 saylı Ərazi Vergilər İdarəsinə Gəncə və Naftalan şəhərləri, Samux, Goranboy, Göygöl, Daşkəsən rayonları daxildir. ƏVİ-ni sosial infrastruktur baxımından müasir tələblərə cavab verən, hər cür şəraitə malik struktur kimi qiymətləndirmək olar. İdarənin rəis müavini Pərviz İsmayılov deyir ki, burada vətəndaşların nazirlik rəhbərliyi tərəfindən qəbulu birbaşa internet vasitəsilə aparılır: vətəndaşların real vaxt rejimində nazirliyin məsul şəxsləri ilə əlaqə yaratmaq imkanları var.

Burada vergi ödəyicilərinin davamlı olaraq nazirliyin yüksək vəzifəli şəxsləri ilə görüşü keçirilir. Koordinasiya şöbəsinin rəisi Arif Məmmədov qeyd edir ki, idarəyə müraciət edən vətəndaşların sorğularının əksəriyyəti yeni tətbiq olunan xidmət növləri ilə bağlı meydana çıxan məsələlərə aid olur ki, bu da müvafiq şöbələrin köməyi ilə həll edilir. Şikayətlərin sayı çox azdır. Vergi işçiləri haqqında nadir hallarda şikayətlər olur, araşdıranda isə bunun daha çox anlaşılmazlıqdan irəli gəldiyi aydınlaşır. İlin birinci yarısında 927 halda vergi ödəyicilərinin telefon vasitəsilə məlumatlandırılması həyata keçirilib, qanunvericiliyin tətbiqi ilə bağlı vergi ödəyicilərinə təqdim edilmiş bildiriş və müraciətlərin sayı 21165 olub.

Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Azər Məmmədov: «Müraciət edən vergi ödəyiciləri, əsasən, şifahi sorğular verirlər. Onlara ərizə və bəyannamələrin, digər sənədlərin doldurulması qaydaları başa salınır, bu sahədə lazımı izahat işləri aparılır. Ödəyicilər elektron xidmətlərə böyük maraq göstərdiyindən elektron sənəd və e-imza üzrə müraciət edənlərin sayı kifayət qədər çox olur. 2012-ci ilin ilk 6 ayı ərzində şöbə tərəfindən 11484 vergi ödəyicisinə müxtəlif istiqamətdə 38215 xidmət göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3112 vergi ödəyicisinin qəbulunun, 2691 xidmətin artıq olması deməkdir». Ötən dövr ərzində vergi ödəyicilərinin məlumatlandırılması, maarifləndirilməsi, vergi təbliğatı və vergi ödəyicilərinə xidmət işlərinin təşkili yüksək səviyyədə həyata keçirilib. Şöbə tərəfindən vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair müraciət edən ödəyicilərin qəbulu təşkil edilib, daxil olan müraciətlərin qeydiyyatı aparılıb, yazılı və şifahi müraciətlər vaxtında cavablandırılıb. Orta məktəblərdə xüsusi metodiki kabinetlərin yaradılması və vergilərə dair mövzuların tədrisi ilə bağlı fəaliyyətini səmərəli təşkili də əsas işlərdən biri olub. Goranboy, Samux və Daşkəsən rayonlarında mövcud olan kabinetlərin imkanlarından istifadə etməklə 8-11-ci sinif şagirdləri arasında bilik yarışması təşkil edilib.

*E-xidmətlərin tətbiqi faydasını verir*

12 saylı ƏVİ-də elektron xidmətlərin tətbiqi ilə əlaqədar vergi ödəyiciləri arasında aparılan maarifləndirmə tədbirləri öz mühüm nəticələrini göstərməkdədir. Hazırda şöbəyə təqdim olunan vergi bəyannamələri və hesabatların elektron formada ödənilməsi tam təmin edilib. İlin əvvəllərindən başlayaraq ƏVİ-yə elektron informasiya mübadiləsinə qoşulmaq üçün ərizə və müqavilələrlə bağlı müraciət edənlərin sayında böyük dinamika nəzərə çarpır. Təkcə iyun ayında 200-ə yaxın ödəyici bu məsələ ilə bağlı müraciət edib. Müraciət edən vergi ödəyicilərinin hamısı e-mübadilə üçün tələb olunan zərflə təchiz olunub. Vergi ödəyicilərinə müntəzəm şəkildə e-ödənişlərin üstünlükləri və istifadə qaydaları ilə bağlı maarifləndirici məlumatlar verilir. Ümumiyyətlə,

2012-ci ilin ikinci rübü ərzində 12 saylı ƏVİ-nin əhatə dairəsində olan rayonlarda nağdsız hesablaşmaların aparılmasının təşkili, POS-terminalların qeydiyyata alınması ilə bağlı sistemli işlər həyata keçirilib. Vətəndaşlara elektron ödənişlərin üstünlükləri barədə təbliğat materialları, xüsusi bukletlər paylanılıb. KİV orqanlarında, Gəncədə fəaliyyət göstərən yerli telekanallarda bu istiqamətdə maarifləndirici materiallar təşkil olunub və bu işlər davam etdirilir.

2012-ci ilin 6 ayı üzrə 819 nəzarət-kassa aparatı qeydiyyata alınıb. Gəncə şəhərində POS-terminalların quraşdırılmasına 2008-ci ilin yanvar ayından başlanılıb və bu qurğuların sayında ilbəil artım qeydə alınıb. 2011-ci ildə POS-terminalların sayı 378 olduğu halda, hazırda 690-a çatdırılıb. Müşahidələr göstərir ki, vətəndaşların kartlarla alış-veriş etmək maraqları böyükdür. Bununla yanaşı, nəzarət-kassa aparatlarının elektron qeydiyyatı işi geniş vüsət alıb. Hazırda ərazi üzrə sahibkarlıq subyektlərinin 90%-dən çoxunun obyektində NKA-ların elektron formada qeydiyyata alınması təmin edilib. Bu istiqamətdə aparılmış təbliğat işləri vergi ödəyicilərinin rüsum və ödənişləri elektron formada həyata keçirməsinə də öz mühüm təsirini göstərib.

*Vergilərin elektron formada ödənişi genişlənir*

12 saylı ƏVİ-də rüsumların və bəyannamələr üzrə hesablanmış vergilərin elektron formada ödənişinin həyata keçirilməsi bu gün əldə olunmuş ən mühüm uğurlardan biri sayıla bilər. 12 saylı ƏVİ şəhərdən kənarda və kəndlərdə yaşayan vətəndaşların bəyannamələri asan təqdim etmələri üçün fəaliyyət göstərən internet klublarla sıx əlaqə yaradaraq bəyannamələrin buradan göndərilməsini təşkil edir. İnternet klublarla əldə olunmuş razılığa əsasən, bura vergi işçiləri təhkim olunub. Vergi müfəttişləri klubda bir neçə kompüterə e-bəyannamələr və yeni xidmətlərlə bağlı proqram təminatının yerləşdirilməsini təmin edib, klub işçilərinə bəyannamələrin göndərilməsi və digər yeniliklərdən istifadə qaydalarını öyrədiblər.

*Sahibkarların sayı artır*

Ölkədə sahibkarlığın sürətlə inkişaf etdirilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi və daha əlverişli biznes mühitinin təmin edilməsi sahibkarlıq sektoruna marağın güclənməsinə təkan verib, yeni qeydiyyata alınan sahibkarların sayının artmasına şərait yaradıb. Birinci yarımillikdə 2372 şəxs qeydiyyatdan keçib, onların 2295-i fiziki şəxs, 68-i kommersiya, 9-u qeyri-kommersiya hüquqi şəxslər olub. Onlayn qeydiyyata alınmış ödəyicilərdən 1405-i fiziki şəxslər, 10-u isə kommersiya hüquqi şəxslərdir. 2012-ci ilin ilk 6 ayı üzrə 1022 təsərrüfat subyekti (obyekti) qeydiyyata alınıb, bu keçən ilin müvafiq dövrü ilə müqayisədə 444 vahid çoxdur. Qeydiyyata alınanlardan 938-i fiziki, 84-ü hüquqi şəxslərdir.

Onu da qeyd edək ki, 2012-ci ilin ilk 6 ayı üçün müəyyən edilmiş 18 milyon 896,9 min manat proqnoz tapşırığına qarşı büdcəyə ümumilikdə 20 milyon 154,9 min manat, yəni tapşırıqdan əlavə 1 milyon 258,1 min manat vəsait köçürülüb, yarımillik proqnoz tapşırığı 106,7% icra edilib.

Elbrus CƏFƏROV